**Abdulov, Ərəstun**. İgid xatirəsini yaşadan bulaq / Ə. Abdulov // Respublika. - 2022. - 26 yanvar. - **№ 17**. - S. 8.

İmişli Rayon İcra Hakimiyyətinin birinci müavini Səfa Ağayev, Hüquq-mühafizə orqanları, şəhidin ailə üzvləri, ictimaiyyət nümayəndələri, orta məktəbin müəlli m və şagirdlərinin iştirakı ilə Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Şöhrət Quliy evin doğulduğu Ölcələr kəndində adına inşa edilən xatirə bulağının açılış mərasimi keçir ildi. Cabbarov Şöhrət Əli oğlu 1995-ci ilin aprelin 28-də İmişli rayonunun Ölcələr kəndində anadan olub. Müddətdən artıq hərbi xidmətdə olan Şöhrət Cabbarov Vətən müharibəsində Füzulinin azad edilməsi uğrunda gedən döyüşlərdə düşmənin atdığı top mərmisinə tuş gələrək 25 yaşında qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə Vətənimizin ərazi bütövl üyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısına qoy ulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Şöhrət C abbarov ölümündən sonra “Vətən uğrunda”, "İgidliyə görə", “Xocavəndin azad olunmasına görə” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilib.

Tədbirdə şəhid Şöhrət Cabbarovun qısa, lakin şərəfli həyat yolundan və onun Vətən müh aribəsində göstərdiyi qəhrəmanlıqlarından ətraflı söhbət açıldı, onunla bağlı xatirələr bölüş üldü. Qazandığımız böyük Zəfərə görə canından keçərək şəhidlik zirvəsinə ucalan Şöhrət kimi oğullarımıza, sağlamlıqlarını itirən qazilərimizə bizim ömür boyu minnətdar və borcl u olduğumuz diqqətə çatdırıldı. Şəhidin məzarı ziyarət edildi, ruhuna dualar oxundu. Şəh idin gənclərə örnək olduğu bildirildi, onunla qürur duyduqları ifadə olundu. Məktəblilər vətənpərvərlik mövzusunda şeirlər söylədilər.
Çıxış edənlər şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə möhtərəm Prezident İlham Əliyevə, Birinci vitse -prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirdilər.